www.achiq.info

**21 Azər jurnalından**

**İsmaıl Şəms**

# Ömrə Yazılan Günlərdən Ən Önəmlisi

## 21 Azər Günü

İran dövləti təzəcə yaranmış Azərbaycan Demokrat Firqəsinin fəaliyyətinin qarşısını almaq məqsədilə 1945-cü il azər ayının 7-də Tehrandan təyyarə ilə Səhamüssəltənə Bəyatini Tsəbrizə ustandar (icra hakimi) göndərdi. Onu ancaq bir neçə idarə rəisi. qarşıladı. Nə yerli əhalidən, nə də firqədən onu qarşılayan olmadı. Səhamüssəltənə 12-azərdə elan edərək, özünü vətənpərvər və Azərbaycan xalqının dostu kimi tanıtdırıb, firqə başçıları ilə müzakirələr aparmağa hazır olduğunu bildirdi.

Nəhayət, Səhamüssəltənənin israrı ilə Zükaüddövlənin evində firqə başçıları ilə onun görüşü oldu. Müzakirədə Səhamüssəltənə İran dövlətinin fİkirlərini təkrar edərək, Azərbaycanın iki prinsipial tələbini: ana dilinin rəsmi tanınmasını və Azərbaycanın muxtariyyətini rədd etdi. Beləliklə də, müzakirələr nəticəsiz bitdi.

Azərbaycan Demokrat Firqəsi bu qərara gəldi kİ, saziş siyasətini buraxıb, silahlı mübarizəyə başlasın. Fədailər Təbrizdə və digər şəhərlərdə fəaliyyətə başladılar. Jandarm və hərbi qüvvələr müqavimət göstərməyib, təslim olmağa başladılar. Firqə Milli Hökumətin təşkili üçün hazırlıq görürdü. Azərbaycan xalqı səbirsizliklə bu günü gözləyirdi.

21 Azər günü Azərbaycan tarixində görünməmiş tarixi bir gün oldu. Həmin gün Təbrizin küçə və meydanlarında şənliklər təşkil edilmişdi. Təbrizdə əhali, sinfindən asılı olmayaraq, şənlikdə iştirak etmək üçün küçələrə çıxmışdı.

Digər şəhərlərdən gəlmiş fədai dəstələri Təbrizin ətrafında və daxilində əminamanlığı qorumağa və nizam-intizamı bərpa etməyə nəzarət edirdi. Mən 21 Azər günü "Azərbaycan" qəzeti redaksiyasında saat 8-dən 9-dək Təbrizdən və digər şəhərlərdən gələn xəbərləri alırdım.

Saat 9-da Azərbaycan Milli Məclisinin ilk iclasını yaşca hamıdan böyük oban Məhəmməd Tağı Rəfii (Nizamüddövlə) öz çıxışı ilə açdı. İclasda nümayəndələrdən 75 nəfər iştirak edirdi. Mir Rəhim Vilai Məclisin daxili nizamnaməsini oxudu və nizamnamə bir səslə qəbul edildi. Daha sonra, gizli səslə Məclisin Rəyasət Heyəti seçildi. Mirzə Əli Şəbüstəri rəis, Sadıq Badəqan, Hüseyn Cövdət və Məhəmməd Tağı Rəfii müavin, Mir Rəhim Vilayi və Məhəmməd Əzima münşi (katib, köməkçi) seçildilər.

Mirzə Əli Şəbüstəri çıxış edərəK firqə sədri Pişəvərinin baş nazir olması haqqında təklifini bildirdi. Bu fikir yeKdilliklə qəbul edildi. Pişəvəriyə tapşırıldı ki, öz dovlət kabinəsini günortadan sonraki iclasda məclisə təqdim etsin. Günortadan sonra Pişəvəri 12 naziri məclisə təqdim edərəK dedi: "Bizim Xärici işlər Nazirliyimiz İran Xarici İşlər Nazirliyidir. Çünki biz İrandan ayrılmaq istəmirik."

Müzakirələr bitdikdən sonra Doktor Cavid və İlhamiyə tapşırıldı ki, Tehrandan göndərilmiş ustandar Səhamüssəltənəyə Azərbaycan Milli Məclisinin təşkilini və onun Tehrana qayıtmalı olduğunu bildirsinlər.

Səhamüssəltənə 22-Azərdə Təbrizi tərk edib Tehrana qayıtdı.

## 21 Azər hərəkatı Ölməzdir!

21 Azər hərəkatı təkcə Azərbaycanda yox, bütün İranda, bəlkə də Yaxın və Orta Şərqdə baş vermiş tarixi bir hərəkat olmuşdur. Məşrutə inqilabı şahlıq və mütləqiyyetin cinayətkar qüvvələrinin koməyi ilə aparılmış siyasətin əleyhinə olmuşsa, 21 Azər hərəkatı demokratik, özünü idarə hakimiyyətinin qurulması və xarici imperializm siyasəti əleyhinə bir hərəkat idi. Bu hərəkat illər böyu xarici dövlətlərin nüfuzu altında yerli mürtəce qüvvələr tərəfindən hüquqları tapdanmış İran xalqlarının, xüsusilə Azərbaycan xalqının nicatı və azadlığı üçün yol açan ümid mənbəyi olmuşdur. 21 Azər hərəkatı baş verdikdə İranın digər əyalət və vilayətlərində azadlıq və demokratia tərəfdarı olan şəxslərin və İran mətbuatının dedikləri və yazdıqları bunu isbat edən dəyərli faktlardır.

21 Azər günü İranın bir sıra mətbuat nümayəndələri, o cümlədən "İran" qəzeti redaktoru Cahangir Təfəzzüli, "Nəcati-İran" qəzeti redaktoru Furuziş, "Rəhbər" qəzeti redaktoru Buzurg Ələvi, "Fərman" qəzeti redaktoru Abbas Şahəndə və müxbirlər: Mahmud Hürmüz, İsmayıl Purvalı və sair Azərbaycana gəlmiş və İran qəzetlərində 21 Azər haqqında öz fıkirlərini yazmışlar.

İsmayıl Purvali dostu Mahmud Təfəzzütiyə məktubunda 21 Azər hərəkatı haqqında yazır:

“Mahmud can, Təbrizdə bu gün müşahidə etdiyim vəziyyəti təsvir etmək mənim üçün çətindir. Bir çox şeylər vardır ki, yazmäq və deməklə onları göstərmək olmaz. Onları təsvir etmək üçün rəssamlardan, musiqişünaslardan və şairlərdən yardım almaq lazımdır. Çünki bu gün Təbrizin saf fəzası altında canlanan hissiyyat, döyunən ürəklər, kişi və qadınları bürümüş həyəcan dalğası, Təbrizin yeni bir rəngə boyanması, bunların hamısı yüzlər və minlərlə nəğmələrin yaranmasına, rəssamlıq tablolarının hazırlanmasına və milyonlarla şeirlərin qoşulmasma zəmin yaradır. Mən inanıram ki, bu əziz Təbrizdə olan qaynar, həyəcanlı, başların. içərisindən, böyük rəssamlar, şairlər və musiqişünaslar çıxacaq, Azərbaycanda başlanmış bu günkü əzəmətli hərəkatı sabah Hindistan sərhəddinə çatdıracaqlar və əbədi olaraq onu hifz edəcəklər.”

İranın demokratik qəzetləri 21 Azər hərəkatını Azərbaycan xalqının qanuni haqları kimi təqdim edərək

dəstəkləyirdilər. “İran” qəzeti yazır:

“Azərbaycan xalqının bir çox istədikləri İran xalqlarının istədikləridir ki, bu gün ölkənin hər bir guşəsindən, Riza şah qalıqlarının neyzəsi altından eşidilir. Bu gün ölkənin siyasətçiləri artıq Azərbaycan xalqının istədiklərini həyata keçirmək məcburiyyətindədirlər. Onlar. əsas qanunun təsdiq etdiyi hüquqları təkcə Azərbaycan xalqlı üçün deyil, bütün İran xalqları üçün əsirgəməməlidirlər."

"Fərman" qəzetinin redaktoru yazır: "

-... Səttarxan və Xiyabani hərəkatı da İrandan ayrılmaq və təcziyə tələblik adı ilə töhmətləndirilmişdir. Biz qəti surətdə başa düşmüşük ki, Demokrat Firqəsi Milli bir firqə olaraq, Azərbaycan xalqının marağını əks etdirir. Biz Demokrat Firqəsinin bir çox başçıları ilə dost və tanışıq, onları vətənpərvər və İranı seven insanlar kimi tanıyırıq. Biz qəti surətdə bilirik ki, Pişəvəri Seyid Ziyalardan, doktor Tahirlərdən qat-qat artıq vətənpərvərdir.

Azərbaycan xalqı da bizim kimi o əyaləti İranın bir hissəsi bilir və digər iranlı qardaşları ilə birlikdə İranı bu qansoran canavarlardan qurtarmaq istəyir."

“Keyhan” qəzeti yazır:

"Bu aydın bir məsələdir ki, dünyanın hər nöqtəsində hakim dairələrin və hakim rejimin əleyhinə yönəlmiş hərəkat töhmətlərlə qarşılanır. Məşrutə hərəkatını qaldıranlar da bu töhmətlərə məruz qalmışlar, "əşrar" və "mcəracu" adlandırılmışlar. Şübhə yoxdur ki, İranın şimalında demokratların hərəkatı İranın ən əhəmiyyətli tarixi hadisələrindəndir. Bu hərəkat İranın bütün şəhərlərinə keçərsə, nəticədə Şərq tarixində yeni fəsil başlanacaqdır."

Xarici mətbuatdan bir sırası belə Azərbaycandakı 21 Azər hərəkatını İranda mürtəce rejimin aradan qaldırılması üçün böyük amil hesab etmişdir.

Azərbaycanın demokrat başçıları öz çıxışlarında və mətbuatda istədikləri hüquqların bütun İranda həyata keçirilməsini təkid etmişlər.

Lakin bunlara baxmayaraq İranın satqın dövlət başçıları və mürtəcelər qorxuya düşüb Azərbaycan hərəkatı əleyhinə təzyiq göstərməyə çalışmışlar. Digər tərəfdən İranı işğal etmiş Rus, İngilis və Amerika dövlətləri kağız üzərində olmasa da, əməli şəkildə İran torpaqlarını iki nüfuz dairəsinə bölərək, müharibə ilə alınmış bir ölkə kimi İranda, öz mənafelərini qorumaq məqsədi ilə istədikləri kimi müdaxilə etmiş, azadlıq tərəfdarların olan yerli kadrlara yol verməyərək öz tərəfdarlarını dövlət işlərinə irəli çəkmişlər. Bundan əlavə Antanta dövlətlərinin rəqabəti gündən-günə şiddətlənmiş bir-biri əleyhinə təbliğat yayaraq müəyyən daxili dairələri və şəxsləri təhrik etmiş, beləliklə, İran azadlıq tərəfdarlarının biriəşməsi və birgə hərəkət etməsinə maneələr törətmişlər. İranın totalitar hökuməti və mürtəcelər bu vəziyyətdən istifadə etmişlər. Xarici ölkələr

öz mənafelərini saxlayıb, qorumaq üçün 21 Azər hərəkatının və nəticədə İran azadlığının tapdalanmasına komək etmiş, İranda keçmişdən daha artıq irticaçı bir rejim yaranmışdır.

Lakin 21 Azər hərəkatı ruhiyyəsi ölməzdir. Azərbaycan xaiqı öz Milli Hökumətini bərpa edəcək, tarix boyu İran xalqlarının azadlığında öhdəsinə götürmüş olduğu qabaqcıllığı yerinə yetirəcək və İran xalqlarının azad və demokratik bir həyata çatması üçün də yol açacaqdır.

## Milli Hökumətin İldönümü (54 il)

Hörmətli xanımlar, hörmətli ağalar, əziz soydaşlar! Biz bu gün buraya Güney Azərbaycanın tarixində ən parlaq və ən əlamətdar gün olan "21 Azer" gününün 54-cü ildönümü münasibətilə toplanmışıq.

Güney Azərbaycanlıların tələbi həmişə azadlıq və demokratiya olmuşdur. İran məşrutə inqilabı ancaq Azərbaycanın qeyrətli, azadlıqsevər oğularının mübarizəsi nəticəsində yaranmış və ancaq onların qanı bahasına məşrutə qanuni - əsası almışdır.

Tarix boyu xarici siyasətin müxtəlif təsirləri və onların əlaltısı olan mürtəce hakim daırəiər azadlıq və demokratiya hərəkatını boğmağa, əldə edilmiş nailiyyətləri puça çıxarmağa çalışmış, azadlıq hərəkatı rəhbərlərini olümlə mükafatlandırmışdır. Məşrutə inqilabında qanlı barışmaz mübarizələrə qorxmaz fədai Səttarxan başçılıq etmişdir. Lakin hiylə ilə onu Tehrana aparıb, xaincəsinə öldürmüşlər. Səttarxan hərəkatında əlinə tüfəng alıb mücahidlərlə çiyin-çiyinə mübarizə aparan azərbaycanlı alim, ruhani və fılosof Şeyx Məhəmməd Xiyabani Azərbaycanın inqilabi hərəkatının sonraki mərhələsini davam etdirmişdir. O, istərsə İran parlamentində nümayəndə olduğu zaman istərsə də Təbrizdə Azərbaycan Demokrat Firqəsini təşkil etdiyi zaman Çar Rusiyası ilə İngiltərə arasında bağlanmış, İranı iki nüfuz dairəsinə bölən müqavilənin və daha sonra həmin müqavilənin məzmununu daşıyan 1919-cu müqaviləsinin əleyhinə kəskin mübarizə edərək mənfur niyyətləri puça çıxarıb, o müqavilələri qəbul etmək istəyən xain İran hökuməti başçılarının xəyanətlərini ifşa etmişdir. Lakin "İran Demokrat Firqəsi" üzvü olan Müxbirüssəltənə Azərbaycanda olan daxili xainlərin və Kazakların əlilə Xiyabanini faciəli bir şəkildə öldürmüşdür.

Tarix göstərmişdir ki, istər xarici dövlətlərin, istərsə də daxili mürtəcelərin törətdikləri faciələr və təzyiqlər Azərbaycan xalqının iradəsini heç vaxt sındırmamış, mübarizəsindən döndərməmişdir. İngiltərənin əliylə uzun müddət İran xalqlarına hakim Kəsilmiş Riza xanın mütləqiyyət və diktatorluq rejiminin Azərbaycan xalqının başına gətirdiyi müsibətlər və məhrumiyyətlər Azərbaycan xalqını sarsıtmamışdır.

Riza şah rejimi devrildikdən sonra 1941-ci ildə Azərbaycan xalqı öz milli hüquqlarını bərpa etmək üçün ayağa qalxmışdır. Bu mübarizəyə rəhbərlik edən "Azərbaycan cəmiyyəti" və onun orqanı olan "Azərbaycan" qəzeti "Azərbaycanı azərbaycanlılar idarə etməli və onlar öz müqəddəratını özləri təyin etməlidir - şüarı ilə

fars şovinistlərinin və Azərbaycanı işğal edən xarici qoşunların təzyiqi və qeyri-qanuni nüfuzuna qarşı mübarizəyə başlamışlar. Riza şahın diktatura rejimindən xilas olmuş Azərbaycan xalqı tərəfindən bu hərəkat rəğbətilə qarşılanmışdır. Lakin "Azərbaycan Cəmiyyəti" və "Azərbaycan" qəzeti həm İran hakim dairələri, həm də işğalçı qüvvələr tərəfindən hücuma məruz qalmış Cəmiyyət və qəzet bağlanmış və başçıları işğalçı qüvvələr tərəfindən Güney Azərbaycandan sürgün edilmişlər. Lakin onlar sürgündəki təzyiqlərə baxmayaraq yenə imkan tapan kimi Təbrizə qayıda bilmiş və inqiliabi hərəkatı davam etdirməyə nail olmuşlar. "Azərbaycan Cəmiyyəti"ndən sonra Tehranda yaranmış "Hizbi Tudeyi İranın" şöbəsi Təbrizdə açılmış. Təcrübə göstərmişdir ki,, sinifi mübarizə aparan bu hizb Azərbaycan və eləcə də İranda müvəffəqiyyət əldə edə bilməmişdir. Çünki, İran sənaye ölkəsi yox, kənd təsərrüfatı ölkəsidir və orada; cəmiyyətin əksəriyyətini orta milli burjuaziya təşkil edir. 1944-cü ildə xalqın bütün təbəqələrinin iştiraki ilə Seyid Cəfər Pişəvərinin başçılığı altında "Azərbaycan Demokrat Firqəsi" təşkil edilmişdir.

1324-cu il aban ayının 29- 30-da Güney Azərbaycanın bütün şəhərləri və kəndlərinin nümayəndələri; toplanmış qurultayda Tehran hökümətinə və böyük dövlətlərə bəyanat göndərilmişdir. Bəyanatda: deyilirdi:

1- Azərbaycan xalqının oz milliyyəti, adət və ənənəsi vardır. Buna görə də, İranın ərazi bütövlüyünə və istiqlaliyyətinə riayət etməklə, öz müqəddəratını həll etməkdə azaddır.

2- İranın digər əyalət və vilayətləri ilə Azərbaycanın mədəni, iqtisadi və siyasi əlaqəsi olduğuna görə, yeni İranın yaranmasında Azərbaycan. xalqı oz haqlı tələblərini əldə etmək istəyir.

3- Azərbaycan xalqı İranda yaşayan digər xalqlar kimi İranın mərkəzi hökumətində və ictimai işlərində iştirak edəcək və İran miili məclisinə nümayəndə göndərəcəkdir.

4- Azərbaycan xalqı öz daxili işlərini idarə etmək üçün hökumət təşkil etməyə haqlıdır və bu, İranın bütövlüyünə, istiqlaliyyətinə zidd deyildi.

1945-ci il dekabrın 12-də Güney Azərbaycan xalqı öz milli məclisini və milli hökumətini yaratdı.

S.C.Pişəvəri I325-ci il səhriyvər ayında təşkil edilmiş Konfransdaki, çıxışında Azərbaycan milli məclisiı və milli hökumətinin yaradılması haqqında izahat verərək demişdir:

**"Bizim nəşr etdiyimiz elamiyyədən sonra Tehran hokuməti tərəfindən zahirən böyük ixtiyaratla Azərbaycana ustandar göndərilmiş. Bəyat milli hökumətimizin nümayəndələri ilə müzakirə etmək üçün Təbrizə gəldi. Bəyat məşrutə - qanune-əsasısı üzrə qəbul edilmiş əyalət və vilayət əncümənlərilə razılığını bildirdi. Lakin məsələnin İran Şura məclisi tərəfindən təsdiq edilməsi məsələsini irəli sürdü və qəti cavab verə bilmədi. Biz əncümənlərin fəaliyyətinin davamı üçün təminat istədik. O təminat da verə bilmədi. Beləliklə danışığımız nəticəsiz qaldı. Biz öz iradəmizə arxalanaraq "21 Azər" günü milli məclisimizi və milli hökumətimizı qurub, sərbəst şəkildə işə başladıq** ". Pişəvəri dedi: **"Hamı bilməlidir**

**ki, biz Tehrandan başqa bir şey istəmirik. Söz Azərbaycanın İrandan ayrılmasında deyildir. Bunu iddia edən də yoxdur. Biz heç vaxt belə iddia irəli sürməmişik. Söz, Konstitusiyanın qəbul etdiyi demokratik üsulların İranda icra edilməsindədir ".**

Pişəvəri milli məclisin ikinci iclasında Azərbaycan milli hökuməti haqqında daxili və xarici şayiələr və təhrikat barəsində danışaraq dedı:

**"21 Azər" hərəkatı dünyada diplomatik çəkişmələrin şiddətli kuuranına təsadüf etdi. Bizim fəaliyyətimiz artdıqca gündən-günə şiddətlənməkdə olan beynəlxalq çəkişmələr kuuranı beynəlxalq siyasətdə bizim məsələmizi birinci sıraya keçirtdi. Nəhayət, Azərbaycan məsələsi diplomatik və siyasi mubarizələr mərkəzini təşkil etdi. Müstəmləkə və müstəmləkə sahibləri düşünürdülər ki, müharibə qurtardıqdan sonra müstəmləkə xalqları öz azadlıq və istiqlaliyyətlərini əldə etmək üçün ayağa qalxsalar, onların qarşısını ala bilsinlər. Buna görə də Azərbaycan hərəkatından böyük vahiməyə və qorxuya düşüb, ona başqa bir ad vermək istədilər və bizim haqlı sadə işimizdə mürəkkəb beynəlxalq macəra yaratmağa çalışdılar. Təqizadə kimi beynəlxalq dəllallar vasitəsilə Londonda, Vaşinqtonda və başqa diplomatik yığıncaqlavda hay-küy salıb suyu bulandırmaq istədilər. Onlar öz ərbabları kimi ciddi-cəhd edirdilər ki, bizim nehzətimizin bir ucunu şurəvilərin ayağına bağlasınlar və İrana beynəlxalq Komission göndərməklə İranın daxili işlərinə müdaxilə etsiniər".**

Mən Pişəvərinin bu sözlərinə bunu da əlavə etmək istərdim ki. Azərbaycanı işğal edən qüvvələrin bir sıra özbaşına, qeyri-qanuni işləri və İran hökumətini qorxudub, şimal neftini almaq məqsədilə sovet qoşunlarının İranın mərkəzinə doğru yeridilməsi yuxarıda deyilən beynəlxalq şayiələrə zəmin yaradırdı.

Bundan əlavə Hizbe-Tudeyi İranın öz nəşriyyatında yaydığı Azərbaycan qoşununun Tehrana yeridilməsi kimi təhrik edici xəbərlər də Azərbaycan milli hökumətinin yıxılmasına səbəb olmuş və ona kömək etmişdir.

Beləliklə "21 Azər" hərəkatı ilə yaranmış Güney Azərbaycan Milli Hökuməti İngiltərə, Amerika və Sovet dövlətləri çəkişməsinin qurbanı olaraq tapdalanmışdır.

Firqə təşkilatı mühacirətdə Kommunist sovet höKumətinin təsiri nəticəsində mahiyyətini dəyişdi və Hizbi-Tudeyi-İranın bir şöbəsinə çevrilərək fəaliyyətsiz, passiv bir təşkilat oldu. Bu təşkilat artıq sinfi partıya şəkilinə çevrildıyinə görə İranda fəaliyyət göstərə bilməzdi. Buna görə də, İranın 1979-cu ildəki çevrilişində iştirak edə bilməzdi. İslam cümhuriyyəti qurulduqdan sonra iştirak etmək istədisə də, faydasız oldu. Necə deyərlər: "Daldan atılan daş topuğa dəyər". Mühacirət dövrü uzun çəkdiyindən köhnə kadrlar dünyasını dəyişdi. Gənclər isə inqilabi əhval-ruhiyyəni itirdilər.

Son vaxtlar bir sıra əqidəli və keçmiş hərəkata bağlı olanlar "21 Azər" hərəkatını və milli hökumətin bərpası məsələsini qaldıraraq "21 Azər" qrupu təşkil etmiş və bu adda jurnal nəşr etməyə başlamışlar.

Hal-hazırda İranda və dünyanın digər nöqətələrində yaşayan azərbaycanlılar da milli hərəkat uğrunda mübarizə məsələsində canlanma yaranmışdır.

Qeyd etmək lazımdır ki, bu hərəkat o zaman nəticə qazana bilər ki, İranda olan və dünyaya səpələnmiş azərbaycanlılar dünyanın, eləcə də İranın hazırkı vəziyyətini və real şəraiti nəzərə alaraq birgə qəbul edilmiş taktika ilə hərəkət etsinlər.

İyirmi ildən yuxarıdır ki, İranda totalitar şahlıq rejimi aradan getmiş, İslam Cümhuriyyəti yaranmışdır.

Hal-hazırda bu hökumətin başçıları və demokratik qüvvələr bilməlidirlər ki, ölkcədə əmin-amanlıq və İranda yaşayan xalqların dostluğu o zaman bərpa olub möhkəmlənə bilər ki, orada yaşayan xalqlar bir-birinin əxlaqına, ənənələrinə, milli xüsusiyyətlərinə, milliyyət və dilinə hörmətlə yanaşsınlar.

Bunun əksinə olaraq, son vaxtlar İranda həqiqi demokratik rejim yaradılması, İranda yaşayan xalqların, o cümlədən Azərbaycan xalqının milli hüquqlarını bərpa etmək uğrunda mübarizələri bir sıra İslam Cümhuriyyəti başçıları tərəfindən dözülməz təzyiqlər və məhrumiyyətlərlə qarşılaşmışdır. Bu, İslam Cümhuriyyətinin iş başına gəldikdə vəd etdikləri islam hökumət üsulu və demokratik prinsiplərlə uyğun deyildir. İslam qoşunu qeyri-ərəb ölkələri aldıqda heç vaxt onları ərəb dilində danışıb-yazmağa və milliyyətlərini dəyişib, ərəb milliyyətini qəbul etməyə məcbur etməmişlər. Bəlkə qeyri-ərəb millətlərin ancaq müsəlman olmaları ilə kifayətlənmişlər.

İslam Cümhuriyyəti dövlət aparatında işləyən bəzi işçilər islamda olan "Əl-müsəlmanü ixvə" hədisini düzgün başa düşməyib, başqa cür izah etməyə və İranda mılli hərəkatın əleyhinə çıxış etmək istəyirlər.

İran çox milliyyətli bir ölkədir. Orada İran milləti, xalqı yox, İranda yaşayan müxtəlif millətlər vardır.

Buna görə də, "21 Azər" qrupu Güney Azərbaycandaki milli hərəkat iştirakçılarına göstərilən təzyiqləri dayandırmağı istəyir və Azərbaycan xalqının haqlı tələblərinə müsbət cavab verilməsi ılə diktator Riza şah rejimindən fərqli olaraq İslam Respublikasının əsl müsəlman və demokratik bir rejim olaraq, müsəlman ölkələri içərisində nümunəvi bir musəlman ölkəsi olmasına ümid edir.

### İsmail Şəms ilə Müsahibə

**Sual**: 21 Azər hərəkatına qədər milli azadlıq hərəkatının keçdiyi yol haqqında nə deyərdiniz?

**Cavab**: Türk dilli Azərbaycan xalqı İran daxilində həmişə xarici dövlətlərin müstəmləkəçilik siyasəti və daxili mürtəce qüvvələrə qarşı mübarizə etmişdir. Bu mübarizə xüsusilə XX əsrin ikinci yarısında nəşr edilmiş mətbuat və XX əsrədəki inqilabi hərəkatlar vasitəsilə özünü göstərmiş və getdikcə mərkəzi hökumətə qarşı hərəkata çevrilmişdir. Məşrutə inqilabi dövründə ilk dəfə olaraq Türk dilində bir neçə qəzet

nəşr edilmişdir. Məşrutə inqilabi ilə əldə edilmiş müvəfəqqiyyətlər nəticəsiz qalmışsa da, Azərbaycan xalqı yenə də mübarizəni davam etdirmiş, daha güclü bir hərəkat baş vermişdir. Şeyx Məmməd Xiyabaninin başçılıq etdiyi demokratik hərəkat buna nümunədir. Bu hərəkat xarici siyasət əleyhinə mübarizə ilə bərabər məşrutə hərəkatının əldə etdiyi əyalət, vilayət, şəhər və kənd əncümənlərinin yaranmasının həyata keçirilməsi uğrunda mübarizə idi.

Şeyx Məmməd Xiyabani mərkəzin əleyhinə olaraq ana dilini müdafiə edirdi. O bütün çıxışlarını ana dilində etmişdi və sonra çıxışları "Təcəddüd"də Fars dilinə tərcümə edilmişdi. Bu fakta istinad edərək bir sıra mətbuatda, hətta Əli Azərinin "Qiyame Şeyx Məmməd Xiyabani" əsərində nədənsə onun Fars dilində çıxış etməsi haqqında danışılır.

20 ildən artıq bir müddət ingilislərin nökəri olan Rizaxan tərəfindən Azərbaycan xalqı bir çox məhrumiyyətlərə və milli təhqirlərə məruz qalmış, ana dilində danışmaq belə böyük günah və cinayət hesab edilmişdir.

Rizaşah rejimi devrildikdən və sovet qoşunu Azərbaycana soxulandan sonra "Azərbaycan Cəmiyyəti" yaranmışdır. Bu cəmiyyətin fəaliyyəti haqqında S.C.Pişəvəri yazdığı və indiyədək gizlin qalıb çap olunmayan kitabda (S.C.Pişəvərinin "Xatirələri", kitabi) deyilir: "Azərbaycan Cəmiyyəti Tehran irticasınıa qarşı, Azərbaycançılıq uğrunda işə başladı...Cəmiyyət Azərbaycan qəzetini yarı fars, yarı türk dilində nəşr etdi... Azərbaycan qəzeti Xiyabanidən sonra milli mübarizə yolunda birinci qədəmi götürmüş oldu...Azərbaycan qəzeti xalq içərisində sürətlə yayilmağa başladı.

"Azərbaycan Cəmiyyəti" tarixi sənədlərə və faktlara əsaslanaraq "nə Fars, nə Rus" şüarını irəli sürdü.

"Azərbaycan Cəmiyyəti" odur ki, hər iki dövlət tərəfindən hücuma məruz qamış, uzun müddət nə İran nə də Sovet mətbuatında o hərəkatın adı çəkilməyinə belə yol verilməmişdir.

1945 ci ildə baş vermiş 21 Azər hərəkatı Azərbaycan tarixində ən görkəmli və ən parlaq yer tutur. Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə yaranmış bu hərəkat tarixdə ilk dəfə olaraq Azərbaycan xalqının uğrunda illərlə mübarizə etdiyi arzularını həyata keçirib Milli Hökumət yaratdı və az müddətdə olsa da, bu xalqın özünü idarə hüququnu bərpa etdi.

**Sual**: Xalqın Milli Hökumətə qarşı münasibəti necə idi?

**Cavab**: 21 Azərdə Milli Hökumətin yaranması münasibəti ilə xalqın sevinci, qurulmuş şənliklər, həyəcanlar, Tehrandan gəlmiş müxbirlərin də yazılarında ifadəsini tapmışdır. Onların biri, İsmayıl Purvali adlı müxbir yazır: "bu gün Təbrizdə müşahidə etdiyim vəziyyəti təsvir etmək mənim üçün çox çətindir. Bir çox şeylər vardır ki, onları yazmaqla və deməklə göstərmək olmaz. Onları təsvir etmək üçün rəssamlardan, musiqişünaslardan və şairlərdən yardım almaq lazimdir. Çünki bu gün əziz Təbrizin saf fəzası altında canlanan hissiyyat, döyünən qəlblər, kişi və qadınları bürümüş həyəcan dalğası Təbrizin yeni bir rənglə

boyanması, bunların hamısı yüzlərlə nəğmələrin yazılmasına, rəssamlıq tablolarının hazırlanmasına və milyonlarla şeirlərin qoşulmasına zəmin yaradır. Mən inanıram ki, bu əziz Təbrizdə olan qaynar həyəcanlı başların içərisindən böyük rəssamlar, şairlər və musiqişünaslar çıxacaqlar.

İranın başqa hissələrində yaşayan demokratik qüvvələr belə Firqəyə, Pişəvəriyə müraciət edərək yalvarırdılar ki, tutduğunuz yolda səhvə yol verməyin, çünki İranda yaşayan diygər demokratik qüvvələr gözlərini Azərbaycana tikib, Azərbaycan hərəkatı vasitəsilə onların da azadlığa çatmalarına ümid edirlər.

**Sual**: Milli Hökumətin islahatlarının xalq üzərində təsiri necə olmuşdur?

**Cavab**: Milli Hökumət dövründə Azərbaycanda bir sıra görünməmiş islahatlar həyata geçirilmişdir. O cümlədən maliklərlə kendlilər arasında qanuni, ədalətli münasibət yaranaraq, kəndçilər yer sahibi olmuşlar. Azərbaycanda ana dilində təhsil almaq, hətta danışmaq belə böyük günah hesab edilmişdirsə, Milli Hökumət dövründə ana dili- türk dili dövlət dili elan edilmişdir. Bir çox iqtisadi və ictimai islahat əmələ gəlmiş, Azərbaycan banki və universitet yaranmışdır. Bu islahatlar Azərbaycan xalqənən illərdən bəri ürəyində bəslədiyi arzularını həyata keçirdiyinə görə, xalq ürəkdən Milli Hökumətə tərəfdar olmuşdur.

**Sual**: Pişəvəri rusların admı idi- mövzusuna münasibətiniz?

**Cavab**: 1941 ci ildə Sovet qoşunları iranın şimalını işğal etdikdən sonra Tehranda komunistlərin və komintern üzvlərinin iştiraki ilə Tudə partiyasi yarandi. Sovet İttifaqi iki məqsədlə bu partiyanı dəstəkləyirdi: İranda kommunist partiya yaradaraq Şərqi Avropada olduğu kimi onu nüfuzu altına almaq və Tudə partiyasının köməyi ilə Şimal neftinin əldə etmək. Azərbaycanda “Azərbaycan Cəmiyyəti” Tudə partiyasını istəmədiyinə görə, Azərbaycanda fəaliyyət göstərə bilmədi. “Azərbaycan Cəmiyyəti” bağlandıqdan sonra, Azərbaycanda iki təşkilat yarandı: Azərbaycan Tudə təşkilatı və Azərbaycan Zəhmətkeşlər təşkilati. Tudə partiyasi nə Tehranda, nə də Azərbaycanda sovetlərin istək və arzularını həyata keçirə bilməyərək müvəffəqiyyət qazana bilmədiyinə görə uzun müddət siyasi fəaliyyətdə olan və nümayəndəliyi Tehran məclisində qəbul edilməyən Seyid Cəfər Pişəvəri, Mir Cəfər Bağırof tərəfindən Bakıya dəvət olunub ona Azərbaycanda demokrat firqəsi təşkil etmək təklif olundu. O bu təklifi rədd edərək ruslara inanmadığını demişdir. Pişəvəri komintern üzvü olmamış, Bakıda İran kommunist Ədalət partiyasında iştirak etmişdir. Bu partiya Moskovaya tabe olmadığına görə Sov İt.kom Partiyası tərəfindən dağıdılmış və bir neçə üzvü, o cümlədən Mirzəli Şəbüstərinin iki qardaşı  Mir Cəfər Bağırovun əlilə öldürülmüşdür. Pişəvəri heç vaxt rusların əlində alət olmamış, Azərbaycan xalqının azadlığı üçün çalışmışdır.

O, Təbrizdə olan siyası təşkilatların vəziyyətinin nəzərə alaraq xalqının azadlıq yolunda bir xidmət göstərmək məqsədilə, ADF-ni təşkil etmişdir. Pişəvəri yeni tapılmış xatirələrində o zaman Təbrizdə olan təşkilatlar haqqında yazır: uzun müddətdən bəri Tudənin Azərbaycan təşkilati böhranli bir hal keçirirdi.

Əyalət komitəsinin başinda duranların əksəriyyəti Tehrandan gəldiyinə və mərkəziyyətə bağlı olduqlarına görə Tudə təşkilatı xalqın etimadını qazana bilmədi.

Pişəvəri Azərbaycan Zəhmətkeşlər təşkilatı haqqında yazır: Zəhmətkeşlər təşkilatı arasında xalqa rəhbərlik edə bilən adamlar nəzərə çapmırdı... Bu təşkilat Fəhiyminin hiyləgərliyi nəticəsində tez bir zamanda dağıldı... O qolçomaqlıq və oğurluq ilə tanınan lotulardan məşhur Quliyevləri bu təşkilatın içərisinə daxil edib, onların vasitəsilə xalqı qorxutmaq, ev soymaq, adam öldürmək, pul almaq kimi işlər ilə təşkilatı bədnam etdi.

Azərbaycan Demokrt Firqəsi təşkil edildikdə həm Azərbaycan Tudə təşkilati, həm də Azərbaycan Zəhmətkeşlər təşkilati firqəyə qoşuldu. Məlum olduğu kimi, bu iki təşkilatın məqsədi əsasən sinfi mübarizə, AD nin isə məqsədi ümumxalq demokratiyası idi. Beləliklə firqədə, hətta başçılar arasında neçətirəlik yarandı. Bir qrup Tehranın tərəfini saxlayır, digər dəstə sovetlərin tərəfini tutaraq Azərbaycanı sovetləşdirmək istəyirdi. Bundan əlavə, firqəyə daxil olan bir sıra nasaleh üzvlərin bəzi özbaşina və yaramaz işləri xalqın narazılığına səbəb olurdu. Digər tərəfdən Stalinin Qəvamla müqavilə bağlayaraq, Azərbaycanı əli- qolu bağlı Qəvamın ixtiyarına qoymasından və onun Pişəvəriyə məktubundan sonra, Pişəvəri nə edəcəyini bilmirdi. Həm İran dövləti həm də Ruslar onun əleyhinə idilər. Buna görə də Ruslar onu İrandan getməyə məcbur etdilər və Bakıda öldürdülər. Pişəvəri İranda qalsaydı belə hər iki tərəf onu öldürəcək idilər.